# "Elektroenergetika haqqında" Azərbaycan Respublikasının 2023-cü il 11 aprel tarixli 858-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi və bəzi fərmanlarının ləğvi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Elektroenergetika haqqında" Azərbaycan Respublikasının 2023-cü il 11 aprel tarixli 858-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

1. "Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarına dəyişikliklər və əlavələr edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 23 oktyabr tarixli 977 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 10, maddə 582 (Cild I) 1-ci hissəsinin 2-ci və 5-ci bəndləri ləğv edilsin.

2. "Elektroenergetika haqqında" Azərbaycan Respublikasının Qanununa, "Qaz təchizatı haqqında" Azərbaycan Respublikasının Qanununa və "Su təchizatı və tullantı suları haqqında" Azərbaycan Respublikasının Qanununa əlavələr edilməsi barədə" Azərbaycan Respublikasının 2010-cu il 2 aprel tarixli 980-IIIQD nömrəli qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 24 may tarixli 262 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 5, maddə 391 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 1.3-cü bənd ləğv edilsin;

2.2. 2-ci hissədən "Elektroenergetika haqqında" Azərbaycan Respublikası Qanunun 8-ci maddəsinin səkkizinci hissəsinin ikinci cümləsində və" sözləri çıxarılsın.

3. "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 706 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 9, maddə 858 (Cild I) 5-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. 5.21.4-cü yarımbənddə "Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilən güc həddindən" sözləri "su elektrik stansiyaları və biokütlədən alınan qaz və ya digər yanacaq növü vasitəsilə elektrik və istilik enerjisi istehsal edən elektrik stansiyalarında elektrik enerjisinin istehsalı üzrə 500 kilovatdan, digər hallar üzrə isə 150 kilovatdan" sözləri ilə əvəz edilsin;

3.2. 5.21.5-ci yarımbənddə "nəqlinə" sözü "ötürülməsinə" sözü ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 22 dekabr tarixli 1750 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 12 (I kitab), maddə 2318 (Cild I) ilə təsdiq edilmiş "Enerji Məsələlərini Tənzimləmə Agentliyinin Nizamnaməsi"nin 3.1.4-cü yarımbəndində "Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi güc həddindən" sözləri "200 kVt-dan" sözləri ilə əvəz edilsin.

5. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 26 iyun tarixli 148 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 6, maddə 1238 (Cild I); Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 14 mart tarixli 22 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Kiçik və orta biznes evlərində mikro, kiçik və orta sahibkarlıq subyektlərinə göstərilən xidmətlərin siyahısı"nın 7-ci hissəsinin "Göstərdiyi xidmətlər" sütununda aşağıdakı dəyişikliklər edilsin:

5.1. 2-ci bənddə "Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi güc həddindən" sözləri "su elektrik stansiyaları və biokütlədən alınan qaz və ya digər yanacaq növü vasitəsilə elektrik və istilik enerjisi istehsal edən elektrik stansiyalarında elektrik enerjisinin istehsalı üzrə 500 kilovatdan, digər hallar üzrə isə 150 kilovatdan" sözləri ilə əvəz edilsin;

5.2. 3-cü bənddə "Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi güc həddindən" sözləri "200 kVt-dan" sözləri ilə əvəz edilsin.

6. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 16 iyul tarixli 204 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 7 (I kitab), maddə 1490 (Cild I) ilə təsdiq edilmiş "Elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahəsində nəzarətin həyata keçirilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

6.1. 1.3.1-ci yarımbənddə "nəql edənləri" sözlərindən sonra "(istilik enerjisinə münasibətdə)" sözləri, "paylayıcıları" sözündən sonra ", təchizatçıları" sözü əlavə edilsin;

6.2. 2-ci hissə üzrə:

6.2.1. 2.1.1-ci və 2.1.2-ci yarımbəndlərdə "elektrik və" sözləri "ötürücü və paylayıcı sistem operatorlarının, habelə" sözləri ilə əvəz edilsin;

6.2.2. 2.1.5-ci yarımbənddə, 2.1-1-ci və 2.3-cü bəndlərdə "Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi güc həddindən" sözləri "200 kVt-dan" sözləri ilə əvəz edilsin;

6.2.3. 2.2.2-ci (birinci halda) və 2.2.3-cü yarımbəndlərdə "elektrik və" sözləri "ötürücü və paylayıcı sistem operatorlarında, habelə" sözləri ilə əvəz edilsin;

6.2.4. 2.3.1-ci yarımbənddə "enerji təchizatı müəssisəsinin və ya dövlət elektroenergetika müəssisəsinin" sözləri "ötürücü və ya paylayıcı sistem operatorunun" sözləri ilə əvəz edilsin;

6.2.5. 2.3.2-ci yarımbənddə "enerji təchizatı müəssisəsi" sözləri "ötürücü və paylayıcı sistem operatorları" sözləri ilə əvəz edilsin;

6.2.6. 2.6.2-ci yarımbənddə "dövlət elektroenergetika və enerji təchizatı müəssisələri" sözləri "ötürücü və paylayıcı sistem operatorları, eləcə də istilik təchizatı müəssisələri" sözləri ilə əvəz edilsin;

6.2.7. 2.6.3-cü yarımbənddə "elektrik və istilik enerjisi istehsalı və təchizatı müəssisələrində elektrik və istilik enerjisinin istehsalı, ötürülməsi, nəqli və paylanması proseslərinin idarə edilməsi, mərkəzi və yerli idarəetmə səviyyəsində dispetçer xidmətlərinin işinin" sözləri "ötürücü və paylayıcı sistem operatorları tərəfindən mərkəzi operativ-dispetçer idarəetməsinin" sözləri ilə əvəz edilsin;

6.2.8. 2.6.4-cü yarımbənddə "enerji istehsalı və təchizatı müəssisələrinin" sözləri "enerjisinin istehsalçısının, habelə ötürücü və paylayıcı sistem operatorlarının" sözləri ilə əvəz edilsin;

6.2.9. 2.6.6-cı yarımbənddə "təchizatı müəssisələri" sözləri "istilik enerjisinin təchizatı müəssisələri, habelə elektrik enerjisinin ötürücü və paylayıcı sistem operatorları" sözləri ilə əvəz edilsin.

7. "Meliorasiya və irriqasiya haqqında", "Əhalinin radiasiya təhlükəsizliyi haqqında", "Balıqçılıq haqqında", "Elektroenergetika haqqında" və "Nəqliyyat haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 3 may tarixli 1579-VQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 iyun tarixli 730 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 6, maddə 1022 (Cild I) 3.7-ci və 3.8-ci bəndləri ləğv edilsin.

8. "Kənd təsərrüfatı kooperasiyası haqqında", "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında", "Turizm haqqında" və "Elektrik və istilik stansiyaları haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 3 may tarixli 1582-VQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 iyun tarixli 733 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 6, maddə 1025 (Cild I) 3.5-ci və 3.6-cı bəndləri ləğv edilsin.

9. "Elektroenergetika haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 17 iyun tarixli 546-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Elektroenergetika haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 1998-ci il 13 iyun tarixli 723 nömrəli və "Elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahəsində nəzarətin həyata keçirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" 2018-ci il 16 iyul tarixli 204 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 25 iyul tarixli 1761 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 7, maddə 750 (Cild I) 1-ci hissəsi ləğv edilsin.

10. "Elektroenergetika haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 27 dekabr tarixli 773-VIQD nömrəli Qanununun tətbiqi və "Elektroenergetika haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 13 iyun tarixli 723 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 8 fevral tarixli 2034 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 2, maddə 242 (Cild I) 1-ci hissəsi ləğv edilsin.

11. Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 2 avqust tarixli 2285 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 8 (I kitab), maddə 1152 (Cild I) ilə təsdiq edilmiş "Bərpa olunan enerji mənbələrinin ərazisində elektrik enerjisi istehsalçısının seçilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

11.1. 1.2.1-ci yarımbənddə "Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilən güc həddindən" sözləri "150 kVt-dan" sözləri ilə əvəz edilsin;

11.2. 3.1.3-cü yarımbənddə və 9.6-cı bənddə "dövlət elektroenergetika müəssisəsi və ya enerji təchizatı müəssisəsi" sözləri "ötürücü və ya paylayıcı sistem operatoru" sözləri ilə əvəz edilsin;

11.3. 6.4.6-cı yarımbənddə "dövlət elektroenergetika müəssisəsinin və ya enerji təchizatı müəssisəsinin" sözləri "ötürücü və ya paylayıcı sistem operatorunun" sözləri ilə əvəz edilsin.

12. "Elektroenergetika haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 13 iyun tarixli 723 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 6, maddə 384 (Cild I) ləğv edilsin.

13. "Elektrik və istilik stansiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 13 fevral tarixli 995-VQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 1 mart tarixli 1861 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 3, maddə 411) ləğv edilsin.

14. Bu Fərmanın 6.1-ci bəndi (elektrik enerjisinin təchizatçısına münasibətdə), 6.2-ci (6.2.2-ci yarımbənd istisna olmaqla), 11.2-ci və 11.3-cü bəndləri (paylayıcı sistem operatoruna münasibətdə) 2025-ci il iyulun 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 may 2024-cü il*

Azərbaycan.- 2024.- 21 may, № 105.- S.4.